**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT İMTAHAN MƏRKƏZİ**

Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə
kağız daşıyıcılar vasitəsilə keçirilən test imtahanı mərhələsində iştirak edən namizədin

# YADDAŞ KİTABÇASI

Aşağıdakıları imtahana gətirmək qadağandır:



İmtahan binasına giriş zamanı üzərində mobil telefon və digər rabitə vasitələri, konspekt və başqa yardımçı vasitələr aşkar olunan namizədlər barədə akt tərtib olunur, bu vasitələr və onların imtahan sənədləri götürülür və onlar imtahan binasına buraxılmırlar.

**2023**

**Hörmətli namizəd!**

Mövcud olan məlumatlara əsasən COVID-19 insanlar arasında birbaşa hava-damcı yolu ilə və ya dolayı yolla kontaminasiya olunmuş səthlərə təmasdan sonra əllərlə ağız boşluğuna, gözlərə, buruna və s. toxunduqda ötürülür.

**Bu virusa yoluxmamaq üçün aşağıdakılara əməl etməyiniz tövsiyə olunur:**



Əllərinizi sabunlu su ilə yuyun və ya dezinfeksiyaedici məhluldan istifadə edin



Üz maskası taxın



Əllərinizlə göz, burun və ağzınıza toxunmayın



Əl ilə görüşməyin



Sosial məsafə (2 metr) saxlayın



Öskürəndə və asqıranda ağzınızı kağız salfet və ya dirsəyinizin iç tərəfi ilə örtün



Əllərinizlə səthlərə təmas etməyin, qapı dəstəklərinə və tutacaqlara toxunmayın




COVID-19-a spesifik olan əlamət(lər) (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) olduğu halda evdən çıxmayın və tibbi xidmətin göstərilməsi üçün 103 TTTY müraciət edin

***Hörmətli namizəd!***

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) sizin dövlət qulluğunda fəaliyyətinizi davam etdirmək arzunuzu bəyənir və sizə bu yolda uğurlar arzulayır. Məqsədimiz biliklərinizi nümayiş etdirmək üçün sizə bərabər şərait yaratmaq, imtahanlarda şəffaflığı, aşkarlığı və obyektivliyi təmin etməkdir. İmtahanda uğur qazanmaq üçün siz yüksək bilik nümayiş etdirməklə yanaşı bu "Yaddaş kitabçası"nda göstərilənləri mütləq nəzərə almalı və imtahanın keçirilmə qaydalarına əməl etməlisiniz.

## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL OLUNMALIDIR:

1. Namizəd imtahana buraxılış vərəqəsində göstərilən vaxtda imtahan keçiriləcək ünvanda olmalı, şəxsiyyətini təsdiq edən sənədin əslini (şəxsiyyət vəsiqəsi, müvəqqəti şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu) və imtahana buraxılış vərəqəsini mütləq təqdim etməlidir.
2. **Aşağıdakı hallarda iştirakçı imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmış gəldikdə;
   - imtahana içkili vəziyyətdə gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.

3. Namizəd sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahan zalının yerini öyrənir.
4. İmtahana namizədlər köməkçi vasitə kimi yalnız qələm (və ya HB sərtliyində sadə karandaş, qələmyonan və pozan) gətirə bilərlər. Digər vasitələrin gətirilməsi və istifadəsinə icazə verilmir.

**DİQQƏT!** Başqasının cavablarını köçürmək və başqalarına köçürməyə şərait yaratmaq olmaz. *Nəticələr yoxlanarkən və imtahandan sonra köçürmə hallarının aşkar edilməsi məqsədilə aparılan araşdırma nəticəsində köçürmə faktı aşkar edilərsə, həm köçürənin, həm də köçürməyə şərait yaradanın imtahan nəticələri ləğv edilir.*

5. İmtahan zalında izahat işi qurtardıqdan sonra cavab kartı paylanır. Cavab kartını qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələmlə (və ya HB sərtliyində sadə karandaşla) doldurmaq lazımdır. Cavab kartındakı məlumatlar optik oxuyucu qurğu vasitəsilə oxunduğundan dairələr tam qaralanmalıdır. Namizəd özü haqqında məlumatları daxil edir, bəyannamə ilə tanış olur və onu imzalayır.

**DİQQƏT! Cavab kartını əzmək, ləkələmək, zədələmək olmaz. Korlanmış cavab kartı dəyişdirilmir.**

6. Cavab kartı doldurulduqdan sonra namizədə seçilmiş vəzifə qrupuna uyğun sual kitabçası veriləcəkdir. Sual kitabçasının üzərində namizədin, sırası, yeri, soyadı, adı və ata adı çap edilir. Sual kitabçasının düzgün təqdim edildiyinə əmin olduqdan sonra üzərindəki bəyannamə soyad, ad və ata adı yazılaraq imza ilə təsdiq olunur.
7. Cavab kartı və sual kitabçası ilə bağlı bəyannamələr imzalandıqdan sonra nəzarətçinin elan etdiyi vaxtda imtahan başlanır.
8. İmtahanın müddəti 2 saat 30 dəqiqədir.
9. Test tapşırıqlarını istənilən ardıcıllıqla cavablandırmaq olar.
10. İmtahanda yoxlanacaq bilik sahələri və hər sahə üzrə test tapşırıqlarının sayı və vəzifə altqrupları üzrə keçid balları haqqında məlumatlar aşağıdakı cədvəldə verilmişdir:

| Qrup | Qanunvericilik | | | Məntiq | | | Dünyagörüşü | | | Mətn təhliletmə | | | Situasiya Mühakiməsi | | | **Ümumi imtahan üzrə** | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | AT | QT | Cəmi | AT | QT | Cəmi | AT | QT | Cəmi | AT | QT | Cəmi | AT | QT | Cəmi | **AT** | **QT** | **Cəmi** |
| **AB** | 10 | 20 | 30 | 6 | 14 | 20 | 0 | 10 | 10 | 0 | 10 | 10 | 0 | 15 | 15 | **16** | **69** | **85** |
| **AC** | 0 | 30 | 30 | 0 | 20 | 20 | 0 | 10 | 10 | 0 | 10 | 10 | 0 | 15 | 15 | **0** | **85** | **85** |
| **BA** | 5 | 25 | 30 | 3 | 17 | 20 | 0 | 10 | 10 | 0 | 10 | 10 | 0 | 15 | 15 | **8** | **77** | **85** |
| **BB** | 0 | 30 | 30 | 0 | 20 | 20 | 0 | 10 | 10 | 0 | 10 | 10 | 0 | 15 | 15 | **0** | **85** | **85** |

*Burada AT- açıq tipli test tapşırıqlarının sayı, QT- qapalı tipli test tapşırıqlarının sayıdır.*

11. Düzgün cavablandırılmış hər bir qapalı tipli test tapşırığı 1 balla, açıq tipli test tapşırığı 2 balla, yanlış cavablandırılmış və ya cavablandırılmamış test tapşırıqları isə 0 balla qiymətləndirilir. Nəticələr hesablandıqda səhv cavablar düz cavabların nəticəsinə təsir göstərmir.
12. Hesablamaları və qeydləri aparmaq üçün sual kitabçasında boş yerlər nəzərdə tutulduğu üçün əlavə kağızdan istifadə olunmasına icazə verilmir.
13. Cavabları işarələyərkən diqqətli olmaq lazımdır. Qapalı test tapşırıqlarında və hesablama, seçim və ardıcıllıq tipli açıq test tapşırıqlarında bir suala cavab olaraq iki və ya daha çox dairə qaralanarsa, həmin cavab səhv hesab edilir. **Ballar hesablanarkən yalnız cavab kartında qaralanan cavablar nəzərə alınır. Sual kitabçasında aparılmış qeydlər heç bir hüquqi əhəmiyyət kəsb etmir.**

**DİQQƏT! Cavabları cavab kartında kodlaşdırarkən yuxarıda göstərilən qaydalara riayət edin. Cavabların cavab kartında kodlaşdırılması ilə əlaqədar apellyasiya müraciətlərinə baxılmır.**

14. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqdan və ya nəzarətçi tərəfindən imtahanın başa çatdığı elan olunduqdan sonra sual kitabçası və cavab kartı nəzarətçiyə şəxsən təhvil verilməli və imtahan binası yubanmadan tərk edilməlidir. Nəzarətçi sual kitabçasını və cavab kartını təhvil alması barədə imtahana buraxılış vərəqəsində imza etməlidir. Cavab kartı və sual kitabçası nəzarətçiyə təhvil verilməzsə, imtahan nəticələri ləğv olunacaqdır.
15. İmtahanın nəticələri haqqında məlumat www.dim.gov.az portalında yerləşdirilir.
16. İmtahandan sonra keçiriləcək ekspertiza nəticəsində hər hansı bir test tapşırığı səhv hesab edilərsə, həmin tapşırıq bütün namizədlər üçün düzgün cavablandırılmış sayılır.
17. Namizəd imtahanın nəticələri ilə razı olmadıqda, nəticələr portalda yerləşdirildiyi gündən etibarən 3 iş günü müddətində Mərkəz tərəfindən yaradılmış apellyasiya komissiyasına şikayət verə bilər. Şikayətə baxıldıqdan sonra nəticələrə dair müvafiq qərar qəbul edilir. Namizəd bu qərardan məhkəməyə şikayət verə bilər.

## NAMİZƏDƏ QADAĞANDIR:

1. İmtahana özünün yerinə başqasını göndərmək;
2. İmtahan binasına, zalına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək və onlardan istifadə etmək;

   **DİQQƏT!** Namizədin imtahan binasına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.

   **DİQQƏT!** Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.
3. Yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız içməli su istisna olmaqla), saqqız, siqaret gətirmək;
4. İmtahan başlandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
5. Nizam-intizam qaydalarını pozmaq;
6. Zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq, danışmaq, kiməsə kömək etmək və ya kiminsə köməyindən istifadə etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
7. Başqasının cavab kartına və test tapşırıqlarına baxmaq və ya öz cavab kartına və test tapşırıqlarına başqasının baxmasına şərait yaratmaq;
8. İmtahanın başlanma vaxtından **1 saat keçənədək və imtahanın qurtarmasına 15 dəqiqə qalmış** imtahandan çıxmaq.

   **DİQQƏT!** İmtahan zamanı qaydaları pozan namizədlərə müvafiq xəbərdarlıq edilir və ya onlar imtahandan kənarlaşdırılır və nəticələri ləğv edilir.

Namizəd imtahanda iştirak edərkən, müsabiqənin keçirilməsi qaydalarına, yaddaş kitabçasında əks olunan tələblərə və namizədlər barədə müəyyən edilmiş qadağalara əməl etməlidir. Namizədin bu tələblərə və qadağalara əməl etməməsi halları (köçürmə, habelə saxta sənədlər təqdim etmə, imtahana öz yerinə başqasını göndərmə və s. hərəkətlər) Mərkəz tərəfindən aşkar edildikdə, onun imtahan nəticələrinin ləğv olunması barədə qərar qəbul edilir. Bu qərardan məhkəməyə şikayət verilə bilər.

*Əgər siz imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin. Nəzarətçi lazımi tədbir görməsə, imtahan rəhbərinin imtahan zalına gəlməsini tələb edin.*

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***